## *ÜMUMPEDAQOJİ PROBLEMLƏR*
## *ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ*
## *GENERAL PEDAGOGICAL ISSUES*

*UOT 37.0*

***Sevil Məhərrəm qızı Axundova***
*Sumqayıt Dövlət Universitetinin dosenti,*
*biologiya üzrə fəlsəfə doktoru,*
*https://orcid.org//0009-0004-8993-0411*
*https://doi.org/10.69682/arti.2024.91(4).25-28*

# TƏLƏBƏLƏRİN FƏALİYYƏTİNDƏ PEDAQOJİ TƏCRÜBƏNİN ROLU

***Севиль Магеррам гызы Ахундова***
*доцент Сумгаитского Государственного Университета,*
*доктор философии по биологии,*

# РОЛЬ ПЕДАГОГИЧЕСКОЙ ПРАКТИКИ В ДЕЯТЕЛЬНОСТИ СТУДЕНТОВ

***Sevil Maharram Akhundova***
*associate professor at Sumgayit State University,*
*doctor of philosophy in biology,*

# THE ROLE OF PEDAGOGICAL PRACTICE IN STUDENT ACTIVITIES

**Xülasə.** Azərbaycan Respublikasının inkişaf Konsepsiyasına uyğun olaraq tələbə və şagirdlərə dolğun, sistemli, yararlı, hərtərəfli bilik və bacarıqların aşılanması əsas şərtlərdəndir. Bu zaman infrastruktur, tədris müəssisələri və insan resursları inkişaf etdirilməlidir. Təhsilin müasir şərtlərlə inkişaf ölkədə əhalinin rifahının yaxşılaşması, eyni rzamanda hər bir fərdin həyatının daha ali səviyyədə qurulması və inkişafı üçün zəmin yaradır. Sinifdə pedaqoji təcrübədə olan tələbələrlə şagirdlər arasında sağlam əməkdaşlığın alınmasında fənn müəllimləri maraqlı olmalıdırlar, bu əməkdaşlığı diqqətdə saxlamalıdırlar. Tələbələrimizə sevgi, qayğı ilə yanaşmalıdırlar. Öz təcrübələrini, bildiklərini bölüşməyi bacarmalıdırlar.
***Açar sözlər**: şagird şəxsiyyəti, "mənlik şüuru", sinifdəki ruh yüksəkliyi, təlim-tərbiyə-təhsil, pedaqoji təcrübə*

**Аннотация.** В соответствии с Концепцией развития Азербайджанской Республики, одним из главных условий является передача студентам и учащимся обширных, систематических, полезных, всесторонних знаний и умений. В настоящее время необходимо развивать инфраструктуру, образовательные учреждения и человеческие ресурсы. Развитие образования в современных условиях создает основу для повышения благосостояния населения страны и в то же время для становления и развития жизни каждого человека на более высоком уровне. Учителя-предметники должны быть заинтересованы в построении здорового сотрудничества между учащимися и студентами, проходящими педагогическую практику в школе. К студентам следует относиться с любовью и заботой, делиться своим опытом и знаниями.
***Ключевые слова**: личность студента, «самосознание», поднятие морального духа в классе, обучение-воспитание-образование, педагогический опыт*

**Abstract.** According to the Concept of the Development of the Republic of Azerbaijan, one of the main conditions is the transfer of extensive, systematic, useful, comprehensive knowledge and skills to students. Currently, it is necessary to develop infrastructure, educational institutions and human resources. The development of education in modern conditions creates the basis for improving the well-being of the country's population and at the same time for establishing and developing the life of each person at a higher

level. Subject teachers should be interested in building healthy cooperation between students and students undergoing pedagogical practice at school. Students should be treated with love and care, share their experience and knowledge.

***Keywords:*** *student's personality, "self-awareness", raising morale in the classroom, training-upbringing-education, pedagogical experience*

Respublikamızda demokratiyanın inkişafı və "Təhsil islahatı"nın sayəsində ümumtəhsil məktəblərinin fəaliyyətinin yeni, səmərəli dövrü başlamışdır. Müasirləşmə qabaqcıl texnologiyaların, elmi uğurlar sayəsində yaradılan innovasiyaların, qabaqcıl və peşəkar müəllimlərin sistemli şəkildə təsiri ilə meydana gəlir. Bu zaman insan kapitalının inkişafı - şagird şəxsiyyətinin formalaşması, onların bilik, bacarıq və vərdişlərinin əlaqəli şəkildə uğurlu tətbiqi həyata keçirilməlidir. İnsan kapitalının inkişafı ölkənin təhsil sisteminin başlıca vəzifəsidir. Bu istiqamətdə bütün qüvvələrin maksimum səfərbər olunması, birgə fəaliyyəti zəruridir.

Təhsil insanlara yeni texnologiyalarda daha yararlı faydalanmaq, əmək bazarında özünəməxsus və layiqli yer tutmaq, ömür boyu təhsil prosesinə qoşulmaq və onu dəyərləndirmək, sağlam və aktiv həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək və tətbiq etmək və s. imkanlarını verir.

Ümumtəhsil məktəblərində pedaqoji təcrübələrin təşkilinin əsasında bir sıra məqsədlər mövcuddur. Bu məqsədlər həm tələbələrin, həm pedaqoji təcrübəyə rəhbərlik edən müəllimlərin (metodist, psixoloq və pedaqoq), həm də məktəb kollektivinin birgə fəaliyyətinin nəticəsidir. Məqsədlərə aiddir:

- Tələbələrin təhsil prosesində əldə etdikləri bilikləri möhkəmləndirmək, onları daha dolğun, yaddaqalan, sistemli, yeri gələndə daha istifadəli hala sala bilmək. Bu bilikləri praktik bacarıqlarla və fəaliyyətlə tamamlamaq.
- Tələbələrin bilik, bacarıq və fəaliyyətlərini inkişaf etdirmək.
- Tələbələri müstəqil və səmərəli əmək fəaliyyətinə və akademik mühitə hazırlamaq, onların gələcək karyera inkişafına kömək etmək.
- Tələbələri təhsil aldığı ixtisasın profilindən asılı olaraq, yeni texnologiyalarla, müasr itehsalat sahələri, qabaqcıl peşə təcrübəsi, iş üsulları, elmi-tədqiqat və digər məsələlərlə tanış etmək.

Bu məqsədlərin həyata keçirilməsi və uğurlu nəticələrin əldə edilməsi elə də sadə məsələlər deyil. Əməkdaşlıq sayəsində uğurlu, arzuolunan nəticələr əldə etmək olar. Məhz buna görə müəllim – müəllim, müəllim – şagird, müəllim – tələbə, tələbə-şagird və bir sıra digər əməkdaşlıqlar diqqət mərkəzində saxlanılmalıdır.

Orta məktəblərdə şagirdlərin şəxsiyyət kimi formalaşmasında onların mənlik şüurunun mərhələli şəkildə inkişafı xüsusi rol oynayır. Bu şüurun formalaşmasının bünövrəsi ailədə qoyulur. Ailə, xüsusilə də valideynlər övladlarında özünə inamı, güvəni, dəyərləri tədricən tərbiyə etməlidirlər. Onlar başa düşməlidirlər ki, övladı özü üçün deyil, cəmiyyət üçün yetişdirirlər. Mənlik şüurunun düzgün formalaşmışı insanın özünü şəxsiyyət kimi tanıması, dərk etməsi, xüsusilə də xarakterinin düzgün inkişafı prosesindən ibarətdir. İnsanın öz mənini kəşf etməsi çox uzun və gərgin, eyni zamanda birgə fəaliyyət, yəni əməkdaşlıq tələb edən bir prosesdir.

Pedaqoji təcrübə zamanı tələbələrimiz şagirdlərlə əməkdaşlığı çox çətinliklə də olsa alındırmağı bacarırlar. Belə ki, şagirdlərlə ünsiyyət zamanı onlardakı "Mən obrazı"nın, "Mənlik şüuru"nun ya heç formalaşmadığını, ya da qədərindən artıq formalaşdığını görürük. Bu da tələbələrimizdə bir qədər ruh düşkünlüyü yaradır.

Həyati faktlar insanda "Mən obrazı"nın eyni vaxtda müxtəlif xarakterli olduğunu göstərir. Bunlara "real mən", "ideal mən" və "sosial mən" obrazları aiddir. Əlimizdə olan real şagirdləri ideal və sosial şagirdlər səviyyəsinə qədər mərhələli şəkildə inkişaf etdirmək biz müəllimlərin ən mühüm vəzifəsidir. Şagirdlərin şəxsiyyət kimi formalaşmasında bu istiqamət xüsusilə diqqət mərkəzində saxlanılmalıdır. Yeni təhsil proqramlarında şəxsiyyətyönlük prinsiplərinə əsaslanaraq "real mən"in düzgün formalaşmasına və özünüqiymətləndirməsinə nail olmaq üçün müəllim-şagird əməkdaşlığı səmərəli şəkildə həyata keçirilməlidir. Təsadüfü deyil ki, müasir məktəblərin qarşısında qoyulan tələblər də bu əməkdaşlığın səmərəliliyindən irəli gəlir.

Ümumtəhsil məktəbləri üçün yeni təlimin tələblərinə uyğun olaraq şagirdlərdə tənqidi, məntiq və yaradıcı təfəkkür formalarını inkişaf

etdirmək mühüm vəzifələrdən biridir. Bunun üçün şagirdlərin şəxsiyyət kimi yetişmələrinə, özünəinam, özünəgüvən, özünüdərk, özünüqiymətləndirmənin düzgün inkişafına çalışmaq və nail olmaq lazımdır. Müasir məktəb həyatının, müəllim-şagird, müəllim-müəllim, şagird-şagird, müəllim-valideyn əməkdaşlıqlarının humanistləşdirilməsi yeni pedaqoji təfəkkürün inkişafı kimi qiymətləndirməlidir.

Görkəmli Amerika pedaqoqu Fillip Şlexti özünün "XXI əsrin məktəbi. Təhsil İslahatının prioritetləri" əsərində qeyd edir ki, o, sahibkarlarla, uğurlu iş adamları ilə və məktəb funksionerləri ilə çoxsaylı sorğular aparmış və onlardan belə bir suala cavab istəmişdir: "Siz məktəbdən nə istəyirsiniz ?" – cavab isə belə olmuşdur: "Bizə elə insanlar lazımdır ki, onlar müstəqil, sərbəst öyrənməyi bacarsınlar". Müəllif bununla demək istəyir ki, əgər şagird müstəqil öyrənməyi, sərbəst fikir irəli sürməyi bacarırsa, məqsədinə çatmaq üçün yollar tapmağı, bu və ya digər problemləri həll etməyi bacarırsa, onda peşəkarlıq səviyyəsini yüksəltmək asan olacaqdır.

Şagird-şəxsiyyətinin formalaşması, müasir məktəblərin təminatının, zamanın, təlim-tərbiyə-təhsil üçlüyünün, təbii ki, dəyərli peşəkar müəllimlərin birgə fəaliyyətinin məhsuludur. Bu baxımdan digər istiqamətləri də düzgün dəyərləndirən, istiqamətləndirən, öyrədən və öyrənənlər arasında səmərəli əməkdaşlığı təmin edə bilən, ən əsası peşəsinin məsuliyyətini hər dəqiqə diqqətdə saxlayan müəllimlərə ehtiyac qədərindən artıqdır.

İllərlə pedaqoji təcrübədə iştirak edən, hərtərəfli müşahidə imkanı olan, müxtəlif məktəblərdə tələbələrimizə olan fərqli münasibətləri görən, tələbələrin pedaqoji təcrübədə rastlaşdığı müsbət və mənfi məqamlarda verdikləri reaksiyaları təhlil edən bir pedaqoji təcrübə rəhbəri kimi bəzi məqamlar məni həddindən çox narahat edir.

Aydındır ki, təhsil sisteminin bütün pillələrində müəllimlərin bilik, bacarıq və peşəkarlıq qabiliyyətləri müasir tələblərə uyğun olmalıdır. Müəllim fəaliyyətinin keyfiyyəti sistemli şəkildə artırılmalıdır. Əksər müəllimlərin tədris prosesində tətbiq etdiyi metodlar müasir tələblərə cavab verməlidir. Bəzi hallarda şagirdlərə əldə etdikləri bilikləri tətbiqetmə və yaradıcı, müstəqil düşünmə imkanı verilmir.

Metodikanı tədris edən müəllimlər mənimlə razılaşarlar. Biz özümüz ildən-ilə, mövzudan-mövzuya, qrup-qrupa ya mövzuları daha da mürəkkəbləşdirib diskussiyaya meyilli edirik, ya da qismən sadələşdirib pedaqogika-psixologiya - metodika ilə əlaqəli şəkildə keçməyə çalışırıq. Hər iki halda məqsəd tələbələrə müəllimlik ixtisasının məsuliyyətini, ağırlığını və heç bir peşə ilə müqayisə olunmayacaq qədər şərəfli olduğunu tədris edə bilməkdir. İldən-ilə, mərhələli şəkildə müəllim olmaq istəyən tələbələrin sayının artdığını çox böyük məmnunluqla görürük və sevinirik. Biz buna çox çətinliklə nail oluruq. Əslində tələbələrin öz seçimləri hansı sahə olursa olsun yaxşı pul qazanmaqdır. Savadlı və peşəkar müəllimlərimizin maddi durumu həmişə yerində olur. Bizim vəzifəmiz tələbələrimizi, yəni gələcəyin müəllimlərini düzgün istiqamətləndirməkdir.

Təcrübəçi tələbələr çox böyük ümidlərlə orta məktəblərə daxil olurlar. Çünki biz onlarla IV kursdan artıq gələcəyin gənc müəllimləri kimi əməkdaşlıq edirik. Seminar və laboratoriya dərslərində bütün səlahiyyət tələbələrdə olur. Onlar tam hazır şəkildə pedaqoji təcrübəyə göndərilir. Bəzi fənn müəllimləri qısqanclıqla yanaşırlar, əməkdaşlıq etmək istəmirlər. Qeyri-səmimi münasibət tələbələrdə özgüvəni aşağı salır. Təbii ki, biz orda daimi deyilik. Dərk edirik ki, məktəbin bütün şərtləri bizim üçün də keçərlidir. Mən belə başa düşürəm ki, əgər gələcəyimiz gənclərin əlindədirsə, onlara münbit, əlverişli şərait yaradılmalıdır ki, öz potensiallarını göstərə bilsinlər. Zamanla bu problemlərin qaydasına düşəcəyinə inanıram.

Yaşadığımız həyatın daha zəngin, daha müasir olmasında qazanılan bilik və bacarıqların yalnız iqtisadi amilə çevrilməsi kifayət eləmir. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, eyni zamanda əxlaqi norma və dəyərlər təhsilalanların cəmiyyətin seçilən, layiqli, sərbəstfikirli olması üçün imkan və şərait yaradır, onları nümunəvi ailə üzvünə və cəmiyyətin layiqli vətəndaşına çevirir.

Məqsədimiz ölkədə peşəkar və səriştəli təhsilverənlərə, ən yeni texnologiyalara əsaslanan infrastuktura malik, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaqdır.

Azərbaycanın təhsil sistemi iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun olmalıdır. Ölkəmizdə biliklərə əsaslanan iqtisadiyyat bərpa olunmalı, informasiya cəmiyyəti yaradılmalı və ölkənin davamlı inkişafı təmin edilməlidir.

Pedaqoji təcrübə tələbələrimizə verilən sonuncu imkanlardan biridir. Belə ki, nəzəri biliklərin, bilik və bacarıqların, eyni zamanda əməkdaşlıqların sərbəst və özünəməxsus şəkildə tətbiq oluna biləcəyi pedaqoji təcrübə tələbələrə qərarlı olmaqda yardımçı olur. Onlar bu müddət ərzində tam nəticəyə gələ bilirlər. Bir növ içindəki "Mən" obrazı ilə təkbətək qalırlar. Mən müəllim ola bilərəm, ya da müəllimlik mənim peşəm deyil.

Çox istəyərdik ki, tələbələrimiz məndə alınar, mən peşəkar müəllim ola bilərəm, mən şagirdləri, məktəbi, məktəb kollektivini sevirəm nəticəsinə gəlsinlər. Belə fikirlərin onlarda yaranması onların öz imkan və bacarıqlarından çox asılıdır. Eyni zamanda bu fikrin düzgün formalaşması biz müəllimlərdən, onlara yaradılan şəraitdən, təbii ki, pedaqoji təcrübə keçdikləri məktəb kollektivindən çox asılıdır.

Gələcəyimiz gənclərin əlindədir. Gəlin gənclərin düzgün və sevdikləri peşəni seçməkdə onlara yardımçı olaq. Onlarda özünəinamı və özünəgüvəni inkişaf etdirməyi bacaraq. Əlimizdə olanları cəmiyyətə sağlam və inamlı təqdim edə bilək. Yeri gələndə bu mənim tələbəm olub, mən ona inanırdım, bütün uğurlara layiqdir deyə bilək.

Müəllimlik gözəl peşədir. Yetər ki, onu sevəsən, dəyərləndirəsən, məsuliyyətini dərk edəsən. Müəllimlik daima öyrənmək, yeniliklərə açıq olmaq, yeri gələndə tətbiq etməyi bacarmaqdır. Nə qədər çox öz peşəmizi sevsək, o qədər də sevgi görəcəyik. Digər peşələrdən fərqli olaraq biz insan kapitalı ilə işləyirik. Bu kapitalı yaralı hala salmaq, ona bilik vermək, onu şəxsiyyət kimi formalaşdırmaq, ən başlıcası isə onu sevmək bizim borcumuzdur. Biz ya peşəmizi sevib cəmiyyətin inkişafında yardımçı olmalıyıq, ya da bizim insanların taleyi ilə oynamaq haqqımız yoxdur. Tələbələrimizin bizim layiqli davamçımız olacaqlarına çox inanıram, onlara uğurlar arzulayıram.

**Problemin aktuallığı.** Savadlı və təcrübəli müəllim hazırlığının səmərəliliyinin qorunması. Tələbələrimizin müstəqil şəkildə fəaliyyətlərində hərtərəfli yardımların təşkili. Peşəkar müəllim kimi yetişmələrində xüsusilə diqqət göstərmək. Tələbələrdə peşə və akademik vərdişlərin mərhələli, sistemli inkişafının, əməkdaşlıq və davranış xüsusiyyətlərinin formalaşmasını pedaqoji təcrübə tədricən təmin edir.

**Problemin elmi yeniliyi.** Pedaqoji təcrübə gələcəyin savadlı, peşəkar müəllimlərinin bu peşəyə layiqlilik dərəcəsini və səviyyəsini üzə çıxaracaq bir fəaliyyət sahəsidir, müəllim hazırlığı formalarından biridir. Bu prosesin gənc müəllimlərin fəaliyyətində xüsusi yeri var. Tələbələrin təcrübəli mütəxəssis kimi hazırlığı məhz praktik yolla dərinləşir, nəzəri bilikləri təkrarlanaraq daha yaddaqalan olur və asan mənimsənilir. Nəticədə pedaqoji təfəkkür, peşəkarlıq formalaşaraq, bacarıq və fəaliyyətin inkişafını təmin edir.

**Problemin praktik əhəmiyyəti.** Pedaqoji təcrübənin praktik əhəmiyyəti ixtisasın xüsusiyyətindən asılı olaraq, həm də tələbələrin yeni texnologiyalarla, müasir istehsalat sahələri ilə, peşə təcrübəsi, iş forma və üsulları, aparılan elmi tədqiqatlarla tanış olmalarıdır.

**Ədəbiyyat:**


1. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2009, 138 s.
2. Seyidov S.İ., Həmzəyev M.Ə. Psixologiya. Ali pedaqoji məktəblərin bakalavr pilləsi üçün dərslik. Bakı. "Nurlan"-2007. 260 s.
3. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin müasir problemləri. Bakı – 1998. 368 s.
4. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri.. Bakı: Mütərcim -2010. 448 s.
5. Azərbaycan Respublikasının təhsil inkişafı üzrə Dövlət Strategiyası // -Bakı: Kurikulum, 2013.-№ 4


**E-mail:** sevilakhundova0@gmail.com
**Redaksiyaya daxil olub:** 29.05.2024